## *Nəriman NƏRİMANOV*-155

# AGAHLIQ SƏLTƏNƏTİNİN ƏMƏLİSALEH SAHİBİ

***(Əvvəli ötən saylarımızda)***

N. Nərimanov Azərbaycanın ərazi bütövlüyü uğrunda fəal və yorulmaz mübarizə aparmış və fəaliyyəti əksər hallarda uğurlu olmuşdur. Məhz N.Nərimanovun siyasəti nəticəsində 1918-1920-ci illərdə olduğu kimi, Bakı yenə də sovet Azərbaycanının paytaxtı olaraq tanınırdı. Qarabağ, Naxçıvan və Zaqatala Azərbaycanın ərazisi statusunda ilk dəfə olaraq beynəlxalq hüquq normaları ilə qəbul olunmuşdu. Bununla belə, 1918-1920-ci illərdə İrəvan və Dərbənd xanlıqlarının və Zəngəzur mahalının ərazilərinin itirilməsi bağışlanılmaz hal idi.

N. Nərimanov Naxçıvanın Azərbaycandan qoparılmaması üçün Meğridən yol verilməsi uğrunda ardıcıl mübarizəsini davam etdirmişdir. O dövrdə baş verən ərazi bölgüsünü bəzi erməni siyasətçiləri özlərinin məğlubiyyəti kimi qiymətləndirirdilər.

Lakin bir sıra əzəli Azərbaycan torpaqlarının itirilməsi qaçılmaz oldu, təəssüf ki, bu məsələdə bolşevik rəhbərliyi müsəlman və türk azərbaycanlılara tamamilə zidd mövqe tutaraq, maksimum onlara məxsus torpaqları parçalamaq və qonşu respublikalara verməklə öz xəyanətini bir daha nümayiş etdirdi. N.Nərimanov "Vladimir İliç Leninə məktub"unda ərazi problemləri haqqında erməni və rus siyasəti ilə barışmaz mövqeyini açıq-aydın ortaya qoymuşdu. Onun məktubundakı fikirlər bunu təsdiq edirdi, o, yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Ərazilərimizi Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan pis nəticələr verə biləcək səhvdir".

Beləliklə, N. Nərimanovun Azərbaycanın ərazi bütövlüyü uğrunda fəaliyyəti əksər hallarda uğurlu olmuşdur. Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanılmış, Bakı Azərbaycanın paytaxtı kimi tanınmışdır. N. Nərimanov Naxçıvanın Azərbaycandan qoparılmaması üçün Meğridən yol verilməsi uğrunda ardıcıl mübarizəsini davam etdirmişdir.

N. Nərimanovun Azərbaycanda, daha sonra Moskvada çalışarkən Sovet Rusiyasının Türküstan siyasətinə fərqli baxışlarının olduğunu, bu siyasətə tənqidi yanaşmasının mahiyyətini, onun dövlətçilik fəaliyyətində türkçü mövqeyini, Türkiyənin, Türküstanın türk xalqları və xadimləri ilə bağlı siyasəti Sovet rəhbərliyinə məlum idi.

N. Nərimanov hələ hakimiyyətə gəlməmişdən əvvəl, 1918-ci ildə Zaqafqaziya seyminin Osmanlı dövlətinə qarşı müharibə etməsini pisləmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqda N.Nərimanovun siyasətində Türkiyə-Rusiya-Azərbaycan strateji üçbucaq maraqları özünü büruzə verməyə başlamışdı. Nəriman Nərimanovun Şərq ölkələri ilə Sovet Rusiyası arasında diplomatik əlaqələrin yaradılmasında böyük xidmətləri olmuşdur. Türkiyə ilə Sovet Rusiyası arasında diplomatik əlaqələrin yaradılması N.Nərimanovun siyasi fəaliyyətində misilsiz hadisə "-sənəd və mənbələrdə öz əksini tapsa da, tarixi dəyərini almamış", demək olar ki, unudulmuşdur.

Bu barədə türk tədqiqatçısı Hüseyn Adıgözəl "Atatürk, Nərimanov və Kurtuluş Savaşımız" mövzusunda ilk olaraq tədqiqata başlamaqla Türkiyə-Azərbaycan münasibətlərində "unudulmuş səhifələrin" - tarixi həqiqətin bərpa edilməsi,N.Nərimanovun bir müdrik şəxsiyyət kimi Türk-Azərbaycan birliyinə sədaqətini nümayiş etdirir,onun müdrik siyasi xadim kimi portretinin bərpasına kömək edir. Hüseyn Adıgözəl tarixçi kimi toxunduğu mövzuda əsər yazmasının məqsədini şərh edərkən qeyd edir: "Qurtuluş savaşımızın ən təhlükəli günlərində bir qardaş olaraq əlini uzadan və əlindən gələn bütün yardımları yapan Sovetlər Birliyinin üzvi olan Azərbaycandan-Türk Qurtuluş Savaşına böyük dəstək verən Nəriman Nərimanovun bir kommunist olsa da, türk olduğundan, türk millətçisi olduğundan zərrə qədər şübhəmiz yoxdur. Onun kommunist olması bizə yardım etməsinə əngəl olmadığı kimi, bizlər də kommunist olmasına baxmayaraq, onun Türkiyə türkləri və türk milləti üçün etdiklərini əsla unuda bilmərik. Tarix olduğu kimi, yazılmalıdır ki, Türk birliyinin təməli sağlam olsun!

Məlum olduğu kimi Nəriman Nərimanovun Türkiyəli türklərlə ilk tanışlığı hələ 1909-1913-cü illərdə Həştərxanda başlamışdır. Sürgün illəri nəzarət altında olan N. Nərimanov burada gizli inqilabi fəaliyyətini leqal tədbirlərdə məharətlə davam etdirirdi. Onun "Şurayi-islam cəmiyyəti"ndə təşkil olunan tədbirlərində tatar, rus, qazax, qırğız və türk zabitləri də iştirak edirdilər. Hüseyn Adıgözəl yazır: "Birinci Dünya müharibəsində əsir düşən və Həştərxana göndərilən türk zabitləri ilə N.Nərimanov orada qarşılaşmış və onlardan aldığı məlumatlarla Türkiyə və türklərin vəziyyətindən xəbər tutmuş, Qurtuluş Savaşı müddətində çətin durumda olan Türkiyə türklərinə əlindən gəldiyindən də daha artığını yaparaq, yardım etməyə çalışmışdır".

1920-1921-ci illərdə Böyük öndər Mustafa Kamal Paşa ilə Nəriman Nərimanov arasında "müxtəlif tarixlərdəki yazışma və məktublardakı söhbət, qarşılıqlı ortaq fikirlər" əsasında yaranmış dostluq münasibətləri sarsılmaz qardaşlıq əlaqələrinə çevrilmişdir. 1920-ci ildə N.Nərimanovun "müstəqil sovet Azərbaycanına" Xalq Komissarları Sovetinin sədri kimi başçılıq etməsi Mustafa Kamal Paşanı məmnun etmişdi. O, Azərbaycanla dostluq əlaqələri qurmaq üçün tanınmış şair və diplomat Memduh Şevket Esendalı səfir göndərmişdir. Bir ildən sonra Türkiyədə, Ankara şəhərində Azərbaycan səfirliyi açılarkən ilk səfir İbrahim Əbilovun dəvətəni qəbul edib açılışda şəxsən iştirak edən Mustafa Kamal Paşa Azərbaycan bayrağını öz əlləri ilə qaldırır və çıxış edərək deyir: "Milli hüdudumuz içində azad müstəqil yaşamaq istəyirik. Millətimiz bu istəyimizin qardaş Azərbaycan xalqı və hökuməti tərəfindən dəstəklən-diyi üçün böyük qürur hissi duyur. Türkiyə və Anadolu türkləri azərbaycanlı qardaşlarının onlara bəslədikləri xoş və gözəl duyğulara böyük dəyər verirlər. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı".

Rusiyaya səfər zamanı Mustafa Kamal Atatürkün əvvəlcə Bakıda, N.Nərimanovun dəvətində olması təsadüfi deyildi. Nərimanov Leninə məktub yazıb Behbud Şahtaxtinskini də Türk nümayəndə heyəti ilə Moskvaya göndərmişdi. N.Nərimanovun tutarlı arqumentlərlə yazılmış məktubunun məzmunu iləLenin1921-ci il fevralın 19-da Mərkəzi Komitənin üzvlərini də tanış edir. N.Nərimanov məktubun bir yerində Leninə yazırdı: "Erməni məsələsi türklər üçün ölüm-qalım məsələsidir. Bu məsələdə türklərin yanında yer almasanız, bütün Şərq xalqlarını itirə bilərik və Azərbaycanı əldə saxlamaq mümkün olmaz! ("Respublika" qəzeti, 10 iyul 2019-cu il).

Hadisənin axarından göründüyü kimi, gözlənilən nəticədən anlaşılır ki, Lenin xarici işlər naziri ermənipərəst Çiçeçrin kimi düşünən, türk heyətini soyuq qarşılayan və təkliflərini diqqətə almayan rəhbərlərin münasibətlərini nəzərə almadan Nərimanovun məktubundakı xəbərdarlıqlarına diqqət yetirmiş, "tərəflər arasındakı anlaşmanın gərəkli olması qənaətinə gəlmişdir".

Ona görə də Türkiyə nümayəndə heyətinin Rusiya Federasiyası ilə anlaşmasında uğur əldə edilmişdir: "Türkiyə bir milyon qızıl pul borc alır. Naxçıvanın Azərbaycanın tərkibində qalması razılaşdırılır. Rusiya Federasiyası ilə Türkiyə ortaq düşmənləri İngiltərəyə qarşı hər məsələdə iş birliyində olmağı qərarlaşdırırlar".

N. Nərimanov Türkiyənin ağır durumunda onun böyük, Rusiya kimi bir dövlət tərəfindən dəstəklənməsinə nail olur. Hüseyn Adıgözəl yazır: "Ankara hökumətinin Sovet İttifaqı tərəfindən tanınması beynəlxalq siyasi müstəvidə çox önəmli hadisə idi. Bu uğurun memarlarından biri, heç şübhə yoxdur ki, o dönəmdə Azərbaycan Şura hökumətinin başçısı Nəriman Nərimanov idi". Türkiyə ordusunun Qurtuluş Savaşında işğalçı qoşunlarına vurduğu zərbələr Azərbaycanda böyük sevinclə qarşılanırdı. N.Nərimanovun tapşırığı ilə Azərbaycanın xarici işlər komissarı Davud Hüseynov türk xalqını, Türkiyə Böyük Millət Məclisini və onun rəhbəri Mustafa Kamal Paşanı Azərbaycan Sovet Sosialist Respublikası və Azərbaycan xalqı adından təbrik edir.

Bu münasibətlə 1921-ci il may ayının ortalarından hər ay Azərbaycan hökuməti Türkiyəyə 62 sistern neft və üç vaqon kerosin göndərməyi qərara almışdı. ...1922-ci ilin iyul ayına qədər 9 min tondan çox kerosin və 350 ton benzin göndərilmişdir. 1921-ci il martın 17-də Türkiyənin səfiri Memduh Şovkət bəy Mustafa Kamal Paşanın təqdim etdiyi məktuba əsasən N.Nərimanov "hökumət üzvlərindən bəzilərinin qarşı çıxmasına rəğmən" dərhal xəzinədə olan 500 kiloqram qızılı, əlavə olaraq 30 sistern nefti, ikisisternbenzinivə 8 sisternmədənyağını Ankarayagöndərmişdi. N.Nərimanov1921-ci il martın 23-də Mustafa Kamal Paşaya cavab məktubunda türk ordusunun zəfərini təbrik etdikdən sonra ona səmimiyyətlə yazırdı: "Paşam, türk millətində bir ənənə vardır, qardaş qardaşa borc verməz, qardaş qardaşın hər çətin durumunda əlindən tutar. Biz qardaş xalqıq, hər zaman və hər şərtlər altında bir-birimizin əlindən tutacağıq. Bu gün etdiklərimiz bir qardaşın qardaşına etdiklərindən başqa bir şey deyildir". (Doğan Avcıoğlu. "Milli Qurtuluş tarixi" III-cild, səh. 438. Sitat Hüseyn Adıgözəlin məqaləsindən götürülmüşdür).

Tarixi mənbə və qaynaqlar təsdiq edir ki,N.Nərimanov Azərbaycan Dövlətinin başında olduğu iki il ərzində Moskvadan asılılığa baxmayaraq, müstəqil dövlət başçısı kimi hərəkət edərək, Türkiyə hökuməti ilə olan əlaqələri daha yüksək ölçü və miqyaslara daşımış və hər şeydən əhəmiyyətlisi isə çox çətin durumda olan Anadoludakı qardaşlarına dövlətinin bütün imkanlarını səfərbər edərək, heç kimsədən çəkinmədən əlindən gələn hər cür yardım etmişdir. Bütün bunlar sənəd və mənbələrdə öz əksini tapsa da, vaxtında tarixi dəyərini almamışdır.

Digər görkəmli Azərbaycan övladları kimi həmin vaxtlar Nəriman Nərimanovu da çox qısqanırdılar. Onu ən çox ermənilər qısqanırdı. Ermənilər hansı qabaqcıl, öndər türkü, müsəlmanı qısqanmırdı ki?. Üzeyir bəy də belə bir məkrə, paxıllığa, həsədə qurban getmişdi. Nəriman Nərimanov kimi...

19 mart1925-ci ildə Nəriman Nərimanov Moskvada rus nümayəndələrlə görüşəndən bir neçə saat sonra qəflətən yerə yıxılır və onun həyatını xilas etmək mümkün olmur.(???) O vaxtdan sonra belə bir insan doğulmamışdı.!Ta Ulu Öndərimiz Heydər Əliyevə qədər!

Kreml divarında amerikalılar da dəfn olunub. Həmin amerikalılardan Con Rid Şərq Xalqları Qurultayı olanda Bakıya gəlmiş, burada Nəriman Nərimanovla görüşmüşdü. Nəriman Nərimanov da Kreml divarında dəfn olunub.Rusiyada səfərdə olarkən vəfat edib,eynilə Con Rid kimi... N.Nərimanov burada dəfn edilən yeganə Azərbaycan Türkü olub.

Nəriman Nərimanov hər sahədə, hər işdə dövrü üçün ilk və yeganə idi. Bunu hamı bilir ki, öz dövrü üçün heç kəs Nəriman Nərimanov ola bilməzdi!

Nəriman Nərimanov bu gözəl işlərinə görə "dahi diplomat" fəxri adı qazanmışdı. O, xalqımızın böyük oğlu idi. Ölümündən sonra N.Nərimanova ən çox dəyər verən Ulu Öndərimiz Heydər Əliyev olub, belə ki, Ulu Öndərimiz ilk dəfə Azərbaycanda hakimiyyətə gəldikdən sonra "S.M.Kirovun abidəsindən uca ola bilməz" deyə kremlin sərt etirazlarına baxmayaraq Bakının ən hündür yerində N.Nərimanovun əzəmətli abidəsini ucaltdırmış, Bakıda və regionlarda rayonlar, metro stansiyalar, küçə və prospektlər, mədəniyyət evləri, ali və orta təhsil ocaqları, kinoteatr və parklara N.Nərimanovun adı verilməklə əbədiləşdirilmişdir. Ulu Öndərimiz onunla birgə bütün ziyalılarımıza dəyər verib. N.Nərimanov və onun kimiləri əməlisaleh insanlardırlar!

N.Nərimanov hər bir sahəni bildiyinə və həmişə gözəl əməllər sahibi olduğuna görə mən öz təfəkkürümə görə Onu "Agahlıq səltənətinin əməlisaleh sahibi" kimi tanıyıram.

Nur içində yat, ƏMƏLİSALEH MÜTƏFƏKKİR!

***23.05.2020***



***Sevindik NƏSİBOĞLU,***
***gənc yazar***